

# Böyük yolun həqiqəti

Rafael Hüseynov

Bakı 2020



Rafael Hüseynov

# Böyük yolun həqiqəti

- 34590 -

Nizami Muzeyi

Bakı 2020

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
Elmi Şurasının 12 mart 2020-ci il tarixli iclasının
(protokol №3) qərarı ilə nəşr edilir**

**Rafael Hüseynov. Böyük yolun həqiqəti.** "Elm və təhsil" nəşriyyatı. Bakı, 2020, 360 səh., şəkilli

ISBN 978-9952-37-420-9

Müasir müstəqil Azərbaycan dövlətinin quruculuğunda və inkişafında müstəsna xidmətləri olan iki görkəmli şəxsiyyətin – Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vətən və xalq qarşısında misilsiz xidmətləri fonunda kitabda dövlətimizin XX əsrin son və XXI yüzilin ilk onilliklərində keçdiyi çətin və mübarizələrlə dolu yoldan bəhs edilir. Azərbaycanın bərpa edildikdən sonra yenidən ciddi təhükələrlə qarşılaşmış dövlət müstəqilliyini, vətəndaş müharibəsi astanasında olan ölkəni, çökmüş iqtisadiyyatın doğurduğu fəsadlardan əziyyət çəkən xalqı dərin və miqyaslı düşüncəsi, əzmi və qətiyyəti ilə xilas edərək sağlam məcraya yönəltmək, müasir və qüdrətli dövlətin əsaslarını yaratmaq Heydər Əliyevin tarixi missiyası idi. Estafeti qəbul edən Prezident İlham Əliyev həmin böyük yolu uğurla davam etdirərək Azərbaycanın istiqlalını daha da sarsılmaz etmiş, ölkəmizi dünya dövlətləri arasında üstün mövqeyə çıxarmış, qlobal enerji və nəqliyyat layihələrini gerçəkləşdirərək Azərbaycanın müstəqilliyinin dönməzliyinin və Azərbaycan xalqının firavanlığının təmin edilməsinə əvəzsiz töhfələrini vermişdir. İki qüdrətli liderin çoxcəhətli coşqun fəaliyyətlərini əks etdirən kitabı onların böyük yolu haqqında müəllifin sözlərinə Azərbaycanın tanınmış bəstəkarlarının yazdığı musiqi əsərləri tamamlayır.

$H\frac{4603000000-129}{N-98-2020}2020$

©Rafael Hüseynov, 2020
©Nizami muzeyi, 2020

*Hər insanın da, hər millətin də onu mətləbinə, məqsədinə çatdıracaq doğru yola həmişə ehtiyacı var.*

*Düz yolun həqiqəti haqqında bir Şərq aqilinin bu ibrətli düşüncələri 1400 illik yol adlayaraq sabaha doğru gedən köhnəlməz nəsihətlər kitabında yaşayır:*

*"Qabaqda gedənlər bizi gözləyəcək ki, onlara çataq. Geridə qalanlar özünü bizə çatdırmağa çalışacaq. Çünki bizim yolumuz haqq yoludur".*

*Azərbaycan xalqı istiqlalın çətin və şərəfli yolu ilə daha bəxtiyar sabahlara doğru gedir.*

*Nə xoşbəxtik ki, bu haqq yolunda inamla, büdrəmədən, yanılmadan irəliləyə bilməkçün tale və tarix millətimizə uzaqgörən, yenilməz, müdrik öndərlər nəsib edib.*





# BU YOLDA YORULMAQ YOX

Onlar hər ikisi artıq bütöv Azərbaycan tarixinin pozulmaz səhifələridir.

XX əsrdəki son Azərbaycan Prezidenti Heydər Əliyev, XXI əsrdə seçilmiş ilk Azərbaycan Prezidenti İlham Əliyev.

Heydər Əliyevin ömür möhləti başa çatsa, onun Azərbaycana rəhbərlik etdiyi onillərin mənzərəsi tam halda göz önündə olsa da, İlham Əliyev fəaliyyətdədir, yolunu getməkdədir və söz yox, yeni illər bu şəxsiyyətin dövlətçi tərcümeyi-halını daha dolğun edən yeni səhifələri də doğuracaqdır.

Lakin istənilən halda artıq onların ikisinin də adının milli tariximizdə həmişə qalacağına şəkk yoxdur.

Əlbəttə, dəyişən zamanlar, yeni günün şərtləri və fərqli baxışları şəxsiyyətlərə, hadisələrə, proseslərə olan münasibəti və qiymətləri dəyişə bilir.

Hərçənd gərək belə olmaya!



Tarix tarixdir, o, düz, təhrifsiz yazılmalı, şəxsi yanaşmalar və hisslərdən asılı olmamalı, rənglər dəyişdirilməməlidir.

Di gəl, belə olmamalı olduğunu hamı təsdiqləsə də, ta qədimlərdən yazanın kim olması və onun hansı mənəvi keyfiyyətlərə sahibliyi, sifarişi kimin etməsi, hansı siyasətin, hansı məfkurənin aparıcı mövqedə dayanması tarixi hadisə və şəxsiyyətlərin təsvirinə də təsirsiz ötüşməyib.

**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**

